## Ziyəddin Sultanov – 70



**Çağdaş jurnalistikamızın və ədəbiyyatımızın tanınmış nümayəndəsi, Əməkdar jurnalist, cəbhə müxbiri olaraq çoxillik fəaliyyəti ilə Qarabağ münaqişəsinin əhatəli salnaməsini yaratmış Ziyəddin Sultanovun anadan olmasının 70 illiyi münasibətilə onun 40 ilədək müddətdə çalışdığı "Xalq qəzeti"ndə yubiley mərasimi keçirildi.**

Toplantını giriş sözü ilə açan baş redaktor Əflatun Amaşov bildirdi ki, dəyərli qələm yoldaşımız 70 yaşının tamam olmasına 2 il qalmış amansız xəstəliyin qurbanı olmasaydı, bu gün şərəfli ömrünün yeddinci onilliyinin başa çatmasını doğmaları, dostları, həmkarları ilə bir yerdə qeyd edəcəkdi.

– Ziyəddin Sultanov ötən əsrin 70-ci illərində fakültəmizin sevimli tələbələrindən olmuşdu. Biz sonralar da həmişə onun xoş sorağını eşitmiş, uğurlarına sevinmişik. Qarabağ Ziyəddin Sultanovun yurd sevgisinin qibləsi, özü isə Qarabağ işığının oduna tapınan pərvanə idi. Ömrünün sonunadək bu sevgidən qaynaqlanan Qarabağ ağrısını dərin həssaslıq və qeyrətlə çəkdi. O, ermənilərin dönüklüyünə yaxşı bələd idi. Buna görə də "xatalı" bölgədə xüsusi müxbirlik missiyasını ayıq-sayıqlıqla yerinə yetirdi.

# Qarabağın bəlalı salnaməsini yaratmış jurnalist



Ölkənin media və ədəbi ictimaiyyəti onun 50 və 60 yaşlarının tamam olmasını o vaxtlar qeyd etməyə cəhd göstərmişdilər. Lakin erməni faşistlərinin yurdumuzda törətdikləri bir çox qanlı faciələrin canlı şahidi olmuş həmkarımız demişdi ki, Xocalının günahsız qurbanlarının intiqamı alınmayınca, bayrağımız Ağdamda, Şuşada dalğalanmayınca, heç bir şadlıq məclisi keçirməyə haqqı yoxdur.

Nüfuzlu ziyalının ərazilərimizin işğalından azad edilməsindən 2 ay əvvəl dünyasını dəyişməsi doğmalarının, dostlarının, həmkarlarının, çoxsaylı oxucularının qəlbində dərin kədər hissi doğurdu. Əvvəlki 30 ildə "Qarabağ müharibəsinin baş yazarı" adını qazanmış Ziyəddin Sultanovun ən böyük arzusu onun əbədiyyətə qovuşmasından az sonra gerçəkləşdi – 2020-ci il noyabrın 8-də Şuşa, noyabrın 20-də isə onun doğulub-böyüdüyü Ağdama qələbə bayrağı sancıldı.



Bir qərinədən artıq davam edən Dağlıq Qarabağ münaqişəsinin canlı, operativ xronikası Ziyəddin Sultanovun silaha çevrilmiş qələmi ilə mükəmməl bir salnamə təşkil edir. Cəbhə bölgəsi müxbiri adını bütün ölçüləri ilə doğruldan Ziyəddin Sultanov bugünümüz və gələcəyimiz üçün qiymətli bir Qarabağ salnaməsi yaratmaq missiyasını yorulmaq bilmədən davam etdirmişdir. O, bu materiallar əsasında hazırladığı "Qarabağ gündəliyi", "Qarabağın qara günləri", "Xocalı faciəsi", "Ağdərədən gələn var", "Əsirlər, itkinlər, girovlar", "Qarabağ müharibəsi: faktlar, hadisələr, düşüncələr...", "Ürək dözmür ayrılığa", "Göylərdən gələn gəlin" kimi kitablarında Qarabağ müharibəsində xalqımızın üzləşdiyi faciə və itkilərin bitkin mənzərəsini yaratmışdır.

**Mərasimdə çıxış edən Bakı Dövlət Universiteti jurnalistika fakültəsinin kafedra müdiri, professor Cahangir Məmmədli sevimli tələbəsi barədə öyünclə söz açdı:**

Ziyəddin Sultanovla Qarabağda ağır sınaqlardan keçmiş Şuşa Rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərov, Laçın Rayon İcra Hakimiyyətinin keçmiş başçısı Ramiz Cəbrayılov bildirdilər ki, yetkin söz adamı olan Ziyəddin Sultanov Qarabağ müharibəsinin dəhşətlərini əks etdirən silsilə qəzet yazılarında, sənədli, bədii əsərlərində erməni separatizminin və təcavüzünün, terror və vandalizminin insanlığa zidd mahiyyətini, qanlı səhnələrini sistemli olaraq qələmə almışdır.

Əməkdar jurnalistlər Bəbir Hüseynov, Fazil Abbasov, İttifaq Mirzəbəyli, Umud Rəhimoğlu, Namiq Əhmədov, İlqar Rüstəmov mərhum dostları və iş yoldaşlarından sevgi və ehtiramla söz açaraq qeyd etdilər ki, erməni silahlı quldur dəstələrinin qarşısında canlı sipər yaratmış əsgər və zabitlərimizin hünəri, şəhidlərimizin qəhrəmanlığı, məcburi köçkünlərin düçar olduqları hədsiz məhrumiyyətlər, cəbhəyanı bölgənin əhalisinin qayğıları və quruculuq işləri də Ziyəddin Sultanovun jurnalistik fəaliyyətində və ədəbi yaradıcılığında geniş yer tutur. O, yurdsevər ziyalı, cəsarətli bir jurnalist kimi Qarabağ müharibəsi başlananda cəbhə bölgəsini tərk etməmişdi.

Ziyəddin müəllimin həmişə Qarabağ münaqişəsindən yazan jurnalistlərə, cəbhə müxbirlərinə davranış və yaradıcılıq nümunəsi göstərdiyini söyləyən həmkarları Akif Cabbarlı, Zərifə Hüseynova, Əli Mahmudlu, Adil İrşadoğlu, Vasif Quliyev bildirdilər ki, ötən illərdə Azərbaycan oxucuları Dağlıq Qarabağda baş verən hadisələri bir çox hallarda müxtəlif səbəblərdən gecikdirilmiş rəsmi məlumatlardan qabaq, Ziyəddin Sultanovun qəzetimizə göndərdiyi operativ yazılarla izləmişlər. Dünyanı sarsıdan Xocalı faciəsi, onun qurbanları və şahidləri barədə çoxsaylı yazılar və bu mövzuda kitablar isə müəllifin yaradıcılığında ayrıca yer tutur.

Yubiley toplantısında o da qeyd edildi ki, Ziyəddin Sultanovu tanıdan və sevdirən əhatəli, qanlı xronikanı onun həssas bədii düşüncəsinin və humanist diləklərinin əks-sədası olan "Məni də sevən var", "Ömür keçdi, gün keçdi", "Burdan bir atlı keçdi", "Kəklik", "Bir qonağam bu dünyada", "Xatırla məni" kimi kitablarında oxuculara həyat eşqi aşılayan ədəbi dünyası tamamlayır.

Xatırladaq ki, həmkarımızın jurnalistika və ədəbiyyatımız qarşısında xidmətlərini dövlətimiz yüksək qiymətləndirmiş, o, "Azərbaycan Respublikasının Əməkdar jurnalisti" fəxri adına layiq görülmüş, "Tərəqqi" medalı ilə təltif etmişdir. Ziyəddin Sultanov ölkə jurnalistlərinin "Qızıl qələm, "Ali media" və bir çox digər yaradıcılıq mükafatlarını da ilk qazanan jurnalistlərdən olmuşdur. Onun həyat yolu, yaradıcılıq örnəyi jurnalistikamızı zənginləşdirmiş və şərəfləndirmişdir.

**Tahir AYDINOĞLU,**
**Elşən AĞALAR (Foto),**
**"Xalq qəzeti"**